**Kürdəmirdə fəaliyyət göstərən marketdə istehlaka yararsız qida məhsullarının aşkarlanmasına dair məlumat**
**(20 may 2024)**

Daxil olan müraciət əsasında Kürdəmir rayonu, Atakişili kəndində fəaliyyət göstərən “Cavidan” marketdə Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları plandankənar yoxlama keçirib.
Baxış zamanı ictimai iaşə müəssəsində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin pozulduğu müəyyən edilib. Belə ki, marketdə istifadə müddəti bitmiş müxtəlif əmtəə nişanlı qida məhsulları aşkarlanıb.
Aşkar olunmuş faktla bağlı qanunvericiliyə uyğun olaraq inzibati protokol tərtib edilib, həmçinin istehlaka yararsız qida məhsullarının satışının qadağan olunması və dövriyyədən çıxarılaraq məhv edilməsi barədə qərar qəbul edilib.